## *Ninni İkkala NYMAN:*

# "COP29-da iqlim fəaliyyəti ilə bağlı vacib qərarların qəbul edilməsini gözləyirəm"

**"Biz COP29-dakı müzakirələrə pozitiv yanaşırıq və fikirlərimiz müsbətdir. Burada gənclərin və ictimaiyyətin iştirakını xüsusi vurğulamaq istəyirəm".**




Bunu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının iqlim dəyişmələri üzrə nümayəndəsi (iqlim rəhbəri) Ninni İkkala Nyman deyib.

O, COP29-da iqlim fəaliyyəti ilə bağlı vacib qərarların qəbul edilməsini gözlədiyini bildirib: "Maliyyə və uyğunlaşma ilə bağlı bəzi qərarların COP29-da təsdiqlənəcəyinə ümid edirəm.

Həll etməli olduğumuz ən böyük problemlərdən biri istilikdir. Bu, qırmızı yol ayrıcında bizim üçün əsas prioritetdir. Çünki hər il yarım milyona qədər insan istiləşmə səbəbindən dünyasını dəyişir".

Azərbaycan.- 2024.- 22 noyabr (№ 257).- S.7.